# ANTİTERROR ŞƏHİDLƏRİ - VƏTƏNİ BÜTÖV EDƏNLƏR

***Günlərlə, aylarla üzərində işlədiyim, müxtəlif mənbələrdən, KİV məlumatlarından istifadə etdiyim və toplu halında birləşdirdiyim məlumat toplusunun növbəti məqalələrini Sizə təqdim edir, Allahdan bütün Şəhidlərimizə rəhmət diləyirəm!***

## CƏFƏROV MAHİR ASİF OĞLU



Şəhid kiçik çavuş Mahir Asif oğlu Cəfərov 13 sentyabr 1986-cı ildə Ağcabədi rayonunun Sarvanlar kəndində anadan olmuşdur. Orta təhsilini başa vurduqdan sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Ağcabədi rayon şöbəsi tərəfindən hərbi xidmətə çağırılmışdır. Çağırışa əsasən, Azərbaycan Silahlı Qüvvələrinin sıralarında, «N» saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuşdur. Hərbi xidmətini başa vuran Mahir bir müddət mülki fəaliyyət göstərmiş. sonra Müddətdən Artıq Həqiqi Hərbi Xidmət kurslarına yazılmış və kurslardan müvəffəqiyyətlə keçərək yenidən ordu sıralarına qayıtmışdır.

Mahir Cəfərov 19 sentyabr 2023-cü ildə rəşadətli Azərbaycan Ordusunun Qarabağda separatçı və təxribatçı fəaliyyət göstərən erməni qəsbkarlarına qarşı başlatdığı lokal xarakterli antiterror tədbirlərində Quru Qoşunlarının Komando Briqadasının Müddətdən Artıq Həqiqi Hərbi Xidmət Qulluqçusu olaraq iştirak etmişdir. Qarabağın tamamilə azadlığına qovuşması və Azərbaycanın ərazi bütövlüyünün tam təmin olunması uğrunda əlindən gələni əsirgəməmiş, sinəsini güllələrə sipər etmişdir. Kiçik çavuş Mahir Cəfərov 20 sentyabr 2023-cü ildə döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına Şəhidlik zirvəsinə yüksəlmişdir.

**Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Mahir Cəfərov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.**

## CƏFƏROV OLEQ QLIÇ OĞLU



Şəhid gizir Oleq Qlıç oğlu Cəfərov 4 noyabr 1989-cu ildə Qusar rayonunun İmamqulukənd kəndində anadan olmuşdur. 1994-cü ildə Qusar rayon Gündüzqala kənd tam orta məktəbində təhsil almağa başlamış, 2000-ci ildən Qusar rayon Zabit Rizvanov adına İmamqulukənd kənd tam orta məktəbində davam etdirdiyi təhsilini 2006-cı ildə başa vurmuşdur. 2006-2008-ci illərdə "Loğman" Tibb Məktəbinin Müalicə işi şöbəsində təhsil almışdır. 2008-ci ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qusar rayon şöbəsi tərəfindən hərbi xidmətə çağırılmışdır. Çağırışa əsasən, Fövqəladə Hallar Nazirliyinin Naxçıvan Muxtar Respublikasında yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir. 2010-cu ildə hərbi xidmətini başa vurduqdan sonra bir müddət mülki fəaliyyət göstərmişdir. 2013-cü ildə Gizirlik kursunu uğurla başa vurmuş və gizir rütbəsi alaraq "N" saylı hərbi hissədə hərbi xidmətə davam etmişdir. Oleq Cəfərov 17 yanvar 2022-ci ildən 18 mart 2022-ci ilədək davam edən Komando kurslarında iştirak etmiş və kursları müvəffəqiyyətlə bitirmişdir.

Oleq Cəfərov 19 sentyabr 2023-cü ildə Qarabağda separatçı fəaliyyət göstərən erməni qəsbkarlarına qarşı rəşadətli Azərbaycan Ordusu tərəfindən başlanan lokal xarakterli antiterror əməliyyatlarında iştirak etmişdir. Ağdərə və Ağdam istiqamətində gedən döyüşlərdə böyük şücaət və igidlik göstərmişdir. Gizir Oleq Cəfərov 20 sentyabr 2023-cü ildə Ağdam rayonunun (indiki Ağdərə rayonunun tərkibinə daxil edilmiş) Sırxavənd kəndində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına Şəhidlik zirvəsinə yüksəlmişdir.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Oleq Cəfərov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

## CƏFƏROV RƏVAN MƏHƏMMƏDƏLİ OĞLU



Şəhid əsgər Rəvan Məhəmmədəli oğlu Cəfərov 10 fevral 2004-cü ildə Tovuz rayonunun Əlimərdanlı kəndində anadan olmuşdur. 2010-cu ildə Tovuz rayon Mərdan Musayev adına Əlimərdanlı kənd tam orta məktəbində orta təhsil almağa başlamışdır. 2021-ci ildə orta təhsilini başa vurmuşdur. 23 aprel 2022-ci ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Tovuz rayon şöbəsi tərəfindən hərbi xidmətə çağırılmışdır. Çağırışa əsasən, Azərbaycan Silahlı Qüvvələrinin sıralarında, Qubadlıda yerləşən «N» saylı hərbi hissədə kəşfiyyatçı kimi müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuşdur.

Rəvan Cəfərov 19 sentyabr 2023-cü ildə rəşadətli Azərbaycan Ordusunun Qarabağda silahlanan erməni separatçılarına qarşı başlatdığı lokal xarakterli antiterror tədbirlərində iştirak etmişdir. Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə böyük igidlik nümayiş etdirmiş, düşmənləri darmadağın edərək Qarabağın tamamilə azadlığına qovuşması yolunda böyük xidmətlər göstərmişdir. Əsgər Rəvan Cəfərov 20 sentyabr 2023-cü ildə Xocavənd istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına Şəhidlik zirvəsinə yüksəlmişdir. Onun nəşi 22 sentyabr 2023-cü ildə doğulduğu Tovuz rayonunun Əlimərdanlı kəndində torpağa tapşırılmışdır. Qəhrəmanımız subay idi və şəhid olduğu zaman hərbi xidmətinin bitməsinə 9 gün qalırdı.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Rəvan Cəfərov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

## CƏLİLOV DEVİD RAUFOVİÇ



Şəhid əsgər Devid Raufoviç Cəlilov 29 fevral 2004-cü ildə Xaçmaz rayonunun Xudat şəhərində anadan olmuşdur. O, iki bacının tək qardaşı idi. 2010-2021-ci illərdə Xaçmaz rayon Xudat şəhər Kərim Məhərrəmov adına 3 nömrəli tam orta məktəbində orta təhsil almışdır. Karate, güləş, boks və üzgüçülüklə məşğul olan Devid yeddi illik musiqi təhsili almış, fortepiano ixtisası üzrə fərqlənmə diplomu ilə təhsilini başa vurmuşdur. Orta məktəbi bitirdikdən sonra 1 aprel 2022-ci ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Xaçmaz rayon şöbəsi tərəfindən hərbi xidmətə çağırılmışdır. Çağırışa əsasən, Azərbaycan Silahlı Qüvvələrinin sıralarında, əvvəlcə Gəncədə, sonra isə Goranboy rayonunda yerləşən "N" saylı hərbi hissədəmüddətli həqiqi hərbi xidmət etmişdir. O, Komando Briqadasında, komando kəşfiyyat bölüyünün tuşlayıcısı kimi hərbi xidmət edirdi.Könüllü olaraq iki aylıq snayper kurslarına yazılan Devid kursları başa vurduqdan sonra snayper olaraq da xidmətini davam etdirirdi.

Devid Cəlilov 2022-ci ilin sentyabrında Ermənistan silahlı qüvvələrinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində törətdiyi təxribat nəticəsində baş verən döyüşlərdə də iştirak etmiş, düşmən təxribatının qarşısının alınmasında böyük xidmətlər göstərmişdir. Döyüşlər bitdikdən sonra hərbi xidmətinə davam etmişdir.

Devid Cəlilov 19 sentyabr 2023-cü ildəQarabağda separatçı və təxribatçı fəaliyyət göstərən erməni qəsbkarlarına qarşı rəşadətli Azərbaycan Ordusunun başlatdığı lokal xarakterli antiterror əməliyyatlarında iştirak etmişdir. Ağdam istiqamətində gedən döyüşlərdə böyük şücaət və qəhrəmanlıq göstərmiş, düşməni darmadağın etmişdir. Əsgər Devid Cəlilov 20 sentyabr 2023-cü ildə Ağdam rayonunun Papravənd kəndi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına Şəhidlik zirvəsinə yüksəlmişdir. Şəhidimiz subay idi və şəhid olduğu zaman hərbi xidmətinin bitməsinə 10 gün qalmışdı. Şəhid əsgər Devid Cəlilovun nəşi doğulduğu Xaçmaz rayonunun Xudat şəhərində torpağa tapşırılmışdır.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Devid Cəlilov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

**SEVİNDİK NƏSİBOĞLU**

***11-ci sinif şagirdi, şair-publisist, AJB üzvü***

***(İstifadə edilmiş mənbələr: oxu.az, report.az, qafqazinfo.az, unudulmazlar.az)***